**Müşfiq Ş**. Vətən onlara minnətdardır! // 525-ci qəzet. - 2023. - 14 iyul. - **№ 121**. - S. 14.

**Üç il öncənin bu günləri... Yumruq boyda ürəyimizdə həyəcanı, qorxunu, qüruru, həsrəti, sevinci, ümidi, inamı, hüznü çuğlaşdıran, bütöv bir xalqı dərindən sarsıtmağa, yumruq kimi birləşməyə sövq edən günlər...**

Özündən sonra böyük qələbə, möhtəşəm zəfər gətirən, 30 illik həsrətimizi vüsala çevirən, qürurumuzu özümüzə qaytaran, baxışlarımızı yerdən qaldıran, alnımızdakı damğanı əbədi silən günlər...

Bəli, düz 3 il öncənin bu günlərində başladı hər şey... Tovuzda... Tovuzdan alovlandı qığılcım, Tovuzdan başladı qələbəyə aparan yol...

2020-ci ilin iyulun 12-də ermənilər mövqelərimizi ələ keçirmək məqsədilə hücuma cəhd göstərərək, Azərbaycan - Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən və iyulun 17-nə qədər davam edən döyüşlərdən üç il keçir.

Bu döyüşlərdə Azərbaycan Silahlı Q

üvvələrinin 12 hərbçisi Vətənin keşiyində əzmlə dayanaraq, qəhrəmancasına şəhid oldu. Qələbəyə gedən yolumuzun memarları olan Tovuz döyüşləri şəhidlərimizi nə qədər ansaq, haqlarında nə qədər danışsaq da, azdır. Məhz bu səbəbdən əziz şəhidlərimizi bir daha - döyüşlərin 3-cü ilində yenidən xatırlayır, ruhları qarşısında baş əyirik:

Tovuz döyüşləri tariximizə həm də general-mayor Polad Həşimovun şəhadəti ilə həkk olundu.

Şəhid general-mayor Polad Həşimov 1975-ci il yanvarın 2-də Qəbələnin Vəndam qəsəbəsində dünyaya gəlib. Polad Həşimovun babası 2-ci Dünya müharibəsinin veteranı olub və məhz o, nəvəsinə Polad adını qoyub. P.Həşimov I Qarabağ müharibəsi zamanı Ağdam uğrunda gedən döyüşlərdə iştirak edib, eləcə də 1994-cü ilin fevral ayında Murovdağ əməliyyatı zamanı "Güzgü", "Koroğlu" və "Ömər" postları uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb. 28 yaşı olanda "mayor" hərbi rütbəsi alan P.Həşimov 2003-cü ildə Prezident Heydər Əliyevin Fərmanına əsasən "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

6 il sonra "polkovnik-leytenant" hərbi rütbəsi alan Polad Həşimov 2009-cu ildə Prezident İlham Əliyev tərəfindən "Vətən uğrunda" medalına layiq görülüb.

2016-cı ildə tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı Polad Həşimov 1-ci Ordu Korpusunun komandir müavini - Qərargah rəisi idi. Cəbhənin Tərtər rayonu istiqamətində gedən döyüşlərin idarə edilməsi məhz ona həvalə olunmuşdu. Gecə döyüşləri zamanı Tərtər rayonunun Talış istiqamətində əlverişli

mövqelər, strateji nöqtələr, o cümlədən, Talış yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunur.

Polkovnik Polad Həşimov Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və Silahlı Qüvvələr qarşısında qoyulmuş tapşırıqları yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 20 aprel 2016-cı il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilir.

Polad Həşimov 2017-ci ildən 3-cü Ordu Korpusunun komandir müavini, Qərargah rəisi vəzifəsində çalışıb.

2019-cu ildə Prezidentin müvafiq sərəncamına əsasən, Polad Həşimova "general-mayor" ali hərbi rütbəsi verilib. 2020-ci il iyulun 14-ü səhər saatlarında Tovuz rayonu istiqamətində baş verən döyüşlər zamanı general-mayor Polad Həşimov qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb və İkinci Fəxri xiyabanda son mənzilə yola salınıb.

P.Həşimovun Vətənə əmanət üç övladı - Davud və Teymur adlı oğulları, Aybəniz adlı qızı yadigar qalıb.

Həmin döyüşlər zamanı müdafiənin ön xəttindəki general-mayorla birgə şəhid olan hərbçilərdən biri də polkovnik İlqar Anzor oğlu Mirzəyevdir.

Polkovnik İlqar Mirzəyev 1973-cü il mayın 8-də Gürcüstanın Qardabani şəhərində anadan olub. Qüsursuz xidmətlərinə görə İ.Mirzəyevə Müdafiə Nazirliyinin 1997-ci il tarixli əmrinə əsasən "baş leytenant", 2000-ci il tarixli əmrinə əsasən "kapitan", 2002-ci il tarixli əmrinə əsasən "mayor", 2012-ci il tarixli əmrinə əsasən isə "polkovnik" hərbi rütbəsi verilib.

2020-ci il iyulun 12-də Tovuz döyüşləri başlayan zamanı İ.Mirzəyev artilleriya komandiri olub. O, iyulun 14-də Tovuz rayonu istiqamətində 3-cü Ordu Korpusunun komandir müavini general-mayor Polad Həşimov və tabeliyində olan əsgərlərlə bir yerdə qəhrəmancasına həlak olub və İkinci Fəxri xiyabanda torpağa tapşırılıb.

Şəhid polkovnik İlqar Mirzəyevin Vətənə əmanət Elvin adlı oğlu və Gülnarə adlı qızı yadigardır.

Şəhid mayor Anar Gülverdi oğlu Novruzov 12 may 1976-cı ildə Masallı rayonunun Ərkivan qəsəbəsində yerləşən Abbaslı məhəlləsində anadan olub.

Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində 1 il təhsil aldıqdan sonra təhsilini yarımçıq saxlayaraq könüllü şəkildə Qarabağ müharibəsinə yollanıb.

1999-cu ildə ali hərbi məktəbi bitirən Anar Novruzov hərbi vəzifəsinə kəşfiyyatçı zabit kimi ön cəbhədə başlayıb. Kəşfiyyatçı zabit kimi xidmətinə görə silah

yoldaşları tərəfindən "Akula" ləqəbi ilə çağrılan mayor A.Novruzov snayper və digər müasir silahlardan məharətlə istifadə edirmiş.

Qüsursuz xidmətinə görə bir çox medallarla, diplom və təşəkkürnamələrlə təltif edilib. 26 ildən artıq hərb sahəsində çalışan mayor A.Novruzov Tovuz döyüşləri zamanı şəhid olub. Nihad və Firuzə adlı övladları Vətənə əmanətdir.

Şəhid mayor Namiq Hajan oğlu Əhmədov 8 noyabr 1984-cü ildə Qazaxın Yuxarı Salahlı kəndində doğulub.

N.Əhmədov 2006-cı ildə ali hərbi məktəbi artilleriya ixtisası üzrə bitirib. Aprel döyüşlərində aparılan hərbi əməliyyatlarda yaxından iştirak edən N.Əhmədov döyüşdə göstərdiyi şücaətə görə fəxri fərmanla təltif edilib. Bununla yanaşı, qəhrəmanlığına görə ona vaxtından əvvəl "mayor" hərbi rütbəsi verilib.

Mayor N.Əhmədov Tovuz istiqamətində gedən döyüşlər zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman şəhid olub və doğulduğu Yuxarı Salahlı kəndində dəfn edilib.

Şəhid baş leytenantı Rəşad Rəşid oğlu Mahmudov 1992-ci ildə Biləsuvar rayonunun Aşağı Cürəli kəndində doğulub. 2007-2010-cu illərdə hərbi liseydə təhsilini başa vuran R.Mahmudov 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2016-cı ildə Aprel döyüşləri zamanı Rəşad Mahmudov Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərdə iştirak edib. Baş leytenant Rəşad Mahmudov 2020-ci ilin iyulunda Tovuz istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub və Aşağı Cürəli kəndində torpağa tapşırılıb.

Şəhid gizir İlqar Ayaz oğlu Zeynallı 9 iyul 1995-ci ildə Tovuz rayonu Cəlilli kəndində anadan olub. Orta təhsilini həmin kənddə bitirən İ.Zeynallı Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə daxil olub. Hərbi həkim işi ixtisasına yiyələndikdən sonra Beyləqanda feldşer (hərbi həkim) kimi xidmətə başlayıb.

Aprel döyüşlərində fəal iştirak edərək neçə-neçə yaralı döyüş yoldaşlarına vaxtında ilkin tibbi yardım edib. O, 2018-ci ildən xidmətini Tovuzda davam etdirib. Tovuz döyüşlərində qəhrəmancasına şəhid olan İlqar Zeynallı doğulduğu kənddə dəfn edilib.

Şəhid gizir Yaşar Vasif oğlu Babayev 1987-ci ildə Ağstafanın Köçəsgər qəsəbəsində doğulub.

O, 2012-ci il iyulun 19-da ailə həyatı qurmuşdu və 8 ildir övlad arzusunda idi. Onun şəhadətindən 2 gün sonra, iyulun 16-da qızı dünyaya gəldi. Qəhrəman hərbçimiz Tovuz istiqamətində gedən şiddətli döyüşlər zamanı şəhid olub və Köçəsgər qəsəbəsində dəfn edilib. Yaşar Babayev şəhadətindən sonra "İgidliyə görə" medalı ilə təltif olunub.

Şəhid çavuş Vüqar Lətif oğlu Sadıqov 1987-ci ildə Ağstafanın Göycəli kəndində doğulub. 2020-ci il iyulun 12-də Ermənistan Silahlı Qüvvələrinin Tovuz rayonu istiqamətində təxribatının qarşısını alan zaman şəhidlik zirvəsinə ucalıb və iyulun 13-də Ağstafa rayonunda dəfn olunub. Onun Vətənə əmanət üç qız və bir oğul övladı qalıb. Şəhadətindən sonra Vüqar Sadıqov "İgidliyə görə" medalı ilə təltif edilib.

Baş əsgər Elşad Dönməz oğlu Məmmədov 1996-cı ildə Tovuzun Ağdam kəndində doğulub. E.Məmmədov Tovuz döyüşləri zamanı düşmən təxribatının qarşısını almaq məqsədilə döyüş tapşırıqlarını yerinə yetirən zaman şəhid olub və iyulun 13-də Tovuz rayonunda dəfn edilib. Elşad Məmmədov şəhadətindən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub. Şəhidimizin vətənə əmanət bir oğul övladı qalıb.

Azərbaycan Silahlı Qüvvələrinin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu əsgər Elçin Arif oğlu Mustafazadə 1992-ci ildə Ağstafanın Həsənsu qəsəbəsində anadan olub. O, Tovuz döyüşləri zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən silah yoldaşları ilə birlikdə şəhid olub və iyulun 14-də Həsənsu qəsəbəsində torpağa tapşırılıb. Elçin Mustafazadə şəhadətindən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

Şəhid əsgər Xəyyam Məhəmməd oğlu Daşdəmirov 2002-ci il fevralın 22-də İsmayıllı rayonunun Balik kəndində doğulub. Bakı şəhəri Binəqədi Rayonu Biləcəri qəsəbəsində yaşayan şəhidimiz 314 nömrəli tam orta məktəbin məzunu olub. X.Daşdəmirov iyulun 12-də Ermənistan Silahlı Qüvvələrinin Tovuz rayonu istiqamətində təxribatının qarşısını alan zaman şəhid olub və iyulun 13-də İsmayıllı rayonunda torpağa tapşırılıb.

Şəhid əsgər Nazim Əfqan oğlu İsmayılov 1996-cı ildə Ağstafanın Kolxəlfəli qəsəbəsində anadan olub. O, 2020-ci il iyulun 16-da Tovuz istiqamətində olan şiddətli döyüşlər zamanı şəhadətə ucalıb və Kolxəlfəli qəsəbəsində dəfn edilib Nazim İsmayılov şəhadətindən sonra "İgidliyə görə" medalı ilə təltif olunub.

Bəli, məhz bu şəhidlərimizin sayəsində başladı Vətən müharibəmiz. Onların açdığı yolda vaxt itirmədən irəlilədi ordumuz və həm düşməndən onların qanı alındı, həm də nəhayətində xalqımızın son 200 illik tarixinin ən möhtəşəm, bənzərsiz qələbəsi yaşandı. Bütün dünyanın "olmaz!" dediyini mümkün etdi Ali Baş Komandan, ordu və xalq birliyimiz! Nə gözəl təsadüfdür ki, bugünlər Şuşada növbəti Vaqif Poeziya Günləri keçirilir. Bu yola, memarı olduğunuz bu qələbəyə, Qarabağa, Şuşaya, elə bu Vaqif Poeziya Günlərinə görə ruhunuz qarşısında bir ömür minnətdarlığımız var, əziz şəhidlərimiz! Məqamınız uca olsun!